"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# FİSKAL SİYASƏTİN TƏNZİMLƏYİCİ FUNKSİYASINA NƏZƏRİ BAXIŞLARIN TƏHLİLİ

№ 3(8)-2023
səh. 88-99

Cavid SEYFULLALI
Azərbaycan Dövlət İqtisad Universiteti,
Beynəlxalq Magistratura və
Doktorantura Mərkəzinin doktorantı

cavidseyfullali1@gmail.com

# Fiskal siyasətin tənzimləyici funksiyasına nəzəri baxışların təhlili

Cavid SEYFULLALI,
Azerbaijan Dövlət İqtisad Universiteti,
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin doktorantı

**XÜLASƏ**

İqtisad elmində dövlətin fiskal və ya digər tənziməyici alətlər vasitəsilə iqtisadi proseslərə müdaxiləsinin zəruriliyi və nəticələri barədə biri-birindən kəskin şəkildə fərqlənən empirik arqumentlərə kifayət qədər tez-tez rast gəlinir. Fiskal siyasətin tənzimləyici funksiyasının milli iqtisadiyyata qısa və uzunmüddətli təsirləri, fiskal siyasətin və onun komponentləri ilə iqtisadi artım arasında əlaqələrin təbiəti iqtisad elminin aktual tədqiqat obyektlərindən biri olaraq bu gün də elmi müzakirələrin diqqət mərkəzindədir. Aparılan ədəbiyyat icmalının nəticələri göstərir ki, fiskal siyasətin tənzimləyici alət kimi səmərəliliyi ölkələrin inkişaf səviyyəsi, iqtisadiyyatın strukturu və miqyası, institutların keyfiyyəti, sahibkarlıq mədəniyyəti, idarəetmə qabiliyyəti və digər amillərin təsiri ilə fərqli formalarda təzahür olunur. Məqalənin məqsədi fiskal siyasətin iqtisadi artıma təsirini öyrənən tədqiqatlarda əldə edilən nəticələrin qruplaşdırılması və təhlili əsasında nəzəri sintezin aparılmasıdır. Azərbaycan üzrə aparılmış tədqiqatların nəticələri qısamüddətli dövrdə real dövlət xərcləri ilə real qeyri-neft ÜDM arasında müsbət əlaqənin olduğunu göstərir. Başqa ölkələrdə aparılan tədqiqatların təhlili göstərir ki, modellərdə real dövlət xərcləri ilə yanaşı, dövlət sektorunun ÜDM-də payı və tənzimləmənin keyfiyyəti (effektivliyi) göstəricilərinin də daxil edilməsi tədqiqat obyektinin daha dərindən öyrənilməsinə imkan verir. Həmçinin, uzunmüddətli dövrdə real dövlət xərcləri və qeyri-neft iqtisadi artımı arasındakı əlaqəyə dair tədqiqatlarda birmənalı yanaşma olmadığından, bu istiqamətdə də yeni araşdırmaların aparılması təklif olunur. Eyni zamanda, dövlət gəlirlərinin və xərclərinin komponentlərinin də iqtisadi artıma təsiri baxımından qiymətləndirilməsi aktual tədqiqat istiqaməti kimi qəbul oluna bilər. Əldə edilən nəzəri və empirik arqumentlər Azərbaycanda fiskal siyasət və iqtisadi artım arasında əlaqələrin tədqiqi üçün nəzəri və metodoloji bazanı müəyyən etməyə imkan verir.

***Açar sözlər:*** *fiskal siyasət, iqtisadi artım, Azərbaycan iqtisadiyyatı, qeyri-neft ÜDM*
***JEL code: E62, F43, O40***

## GİRİŞ

Fiskal siyasətin iqtisadi tənzimləmədəki qısamüddətli və uzunmüddətli rolu, dövlətin vergi və büdcə siyasətinin ölkənin iqtisadi artımına təsiri uzun illər boyunca iqtisadçılar tərəfindən araşdırılsa da, birmənalı nəticə əldə oluna bilməmişdir və bu mövzu aktiv müzakirə mövzusu olmağa davam edir. Azərbaycanda da fiskal siyasət, dövlətin vergi və büdcə siyasəti ilə iqtisadi artım arasındakı əlaqəni araşdıran bir çox tədqiqat işləri mövcuddur.

Fiskal siyasət və iqtisadi artıma həsr olunmuş tədiqqatların nəzəri bazası əsasən Vaqner qanunu və Keyns hipotezi üzərində qurulur. Vaqner qanununa görə, iqtisadiyyatın böyüməsi vergitutma bazasını genişləndirir və beləliklə büdcə mədaxilinin artması üçün şərait yaradır. Büdcə gəlirlərinin artması isə öz növbəsində dövlətin ictimai məhsulları və xidmətləri daha böyük həcmdə təmin etməsi üçün büdcə xərclərini artırmağa şərait yaradır. Beləliklə, bu qanuna görə, iqtisadi artım büdcə gəlirlərinin və büdcə xərclərinin artımına səbəb olur. Lakin bu qanunda əks əlaqə dövlət xərclərinin iqtisadi artıma səbəb olması barədə mülahizə yoxdur.

Keyns hipotezi isə dövlət xərclərinin məcmu tələbi artırmaq gücündə olması mülahizəsi üzərində qurulur. Dövlət xərcləri ilə məcmu tələbin artımı əlavə təklifə ehtiyac yaradır, yeni iş yerləri və investisiyaların artımını dəstəkləyir və beləliklə daha çox milli sərvətin yaranmasına

səbəb olur. Yəni, dövlət xərcləri iqtisadi artımın yüksəlməsinə səbəb olur. Əlbəttə, bu mülahizənin doğrulması üçün bir neçə şərtin ödənilməsi tələb olunur:

- yerli istehsal artan məcmu tələbin ödənilməsində idxal məhsulları ilə müqayisədə kifayət qədər rəqabət qabiliyyətlidir;
- dövlət xərcləri kifayət qədər şəffaf və hesabatlıdır;
- dövlət satınalmalarında yerli istehsala üstünlük verilir və s.

Fiskal siyasəti digər tənzimləyici alətlərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun dövlət tərəfindən daha çox nəzarət edilə bilən və nəticələrinin monitorinqinin aparılması nisbətən asan olması ilə bağlıdır.

Qeyd edilənləri nəzərə alaraq, bu istiqmətdə araşdırmaların icmalının aparılması, nəzəri və empirik nəticələrin müqayisəli təhlili və ümumiləşdiriməsi əsasında Azərbaycanda fiskal siyasət və iqtisadi artım arasında əlaqələrinin tədqiqinin nəzəri və metodoloji əsaslarının müəyyən edilməsi məqalənin məqsədi olaraq müəyyən edilmişdir.

## ƏDƏBİYYAT ARAŞDIRMASI

Fiskal siyasət iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizminin əsas alətlərindən biri olaraq, həm dövlət gəlirlərinin mənbələrinin və həcminin, həm də dövlət xərclərinin istiqamətləri və məbləğlərinin planlaşdırılması və proqnozlaşdırılması funksiyalarını daşıyır. Hər iki istiqamətdə dövət siyasətinin formalaşdırılmasında ölkənin sosial-iqtisadi xüsusiyyətləri, asayişin, iqtisadi və ictimai təhslükəsizliyin, eləcə də sosial müdafiənin təmin edilməsi və gələcək inkişaf hədəfləri nəzərə alınır.

Dövlətin fiskal siyasətinin əsasında siyasi, sosial, təhlükəsizlik, milli sərvətin təkrar bölgüsü kimi məsələlərin həlli kimi mürəkkəb məsələlərin həlli dayanır. Lakin bu siyasətin nəticələri milli sərvətin və iqtisadi artımın mənbələrinin inkişafına da əhəmiyyətli təsir göstərir. Fiskal siyasətin iqtisadi proseslərə birbaşa və mutiplikativ təsirləri barədə də elmi mülahizələr mövcuddur.

Ölkənin milli sərvətinin əsas göstəricilərindən biri olan Ümumi Daxili Məhsulun hesablanması üçün tətbiq edilən "xərcər" və "gəlirlər" üsullarının hər ikisində fiskal siyasətin komponentləri iştirak edir.

ÜDM-nin hesablanmasının "xərclər" üsulunda "Dövlət xərcləri" dörd toplanandan biridir. "Gəlirlər" üsulunda istifadə edilən "vergilər və rüsumlar" toplananı da birbaşa fiskal siyasət komponentinə aiddir. Qeyd edilməlidir ki, iqtisad elmində dövət gəlirləri və xərclərinin makroiqtisadi göstəricilərə (ÜDM, inflyasiya, məşğulluq və s.) dolayı təsirlərinin mövcudluğuna dair tutarlı arqumentlər mövcuddur.

Birbaşa və dolayı vergilər, gömrük rüsumları və idxalda tutulan vergilər, iqtisadi fəaliyyət subyektlərinin sosial-müdafiə xarakterli ödənişləri, dövlət rüsumları və digər gəlir növləri həm məcmu təklifə, həm də məcmu tələbə birbaşa və dolayı təsir göstərərək iqtisadi prosesləri stimullaşdırmaq və ya məhdudlaşdırmaq imkanlarına malikdir.

Digər tərəfdən, dövlət təhsil, səhiyyə və elm sahələrinə, infrastruktur layihələrinə, əmtəə və xidmətlərin alınmasına, sosial müdafiənin təmin edilməsinə, müdafiə və təhlükəsizlik sektorlarına çəkdiyi xərclərlə məcmu tələbin stukturunda və həcmində dəyişiklik etmək imkanını da daşıyır.

Fiskal siyasət və iqtisadi artım arasındakı əlaqələrin təbiətinin öyrənilməsinə həsr edilmiş empirik və nəzəri tədqiqatlar Vaqner qanunun və Keyns hipotezinin ən müxtəlif şəraitlərdə nə dərəcədə özünü doğrultduğunu göstərməklə yanaşı, yeni ideyaları da ortaya qoyur.

Həsənov (2013a) 1998-2012-ci illər arasındakı dövr üzrə asılı dəyişən kimi real qeyri-neft ÜDM ilə müstəqil dəyişənlər kimi real dövlət xərcləri və real özəl investisiyalar arasındakı əlaqəni təhlil etmək üçün ADLBT metodundan istifadə etmiş və uzunmüddətli perspektivdə real dövlət xərcləri ilə real qeyri-neft ÜDM arasında statistik əhəmiyyətli müsbət əlaqəni aşkar etmişdir. Bu araşdırmada həmçinin real özəl investisiyalar və real qeyri-neft ÜDM arasında uzunmüddətli perspektivdə müsbət, lakin statistik baxımdan əhəmiyyətli olmayacaq dərəcədə

zəif əlaqənin olduğu da təsdiqlənmişdir. Qısamüddətli dövrdə isə real dövlət xərcləri və real qeyri-neft ÜDM, həmçinin real özəl investisiyalar və real qeyri-neft ÜDM arasında statistik əhəmiyyətli müsbət əlaqələr aşkar edilmişdir. Qısa şəkildə izah etməli olarsaq, qısamüddətli perspektivdə həm real dövlət xərcləri, həm də real özəl investisiyalar real qeyri-neft ÜDM ilə statistik əhəmiyyətli müsbət əlaqəyə malikdir, lakin uzunmüddətli perspektivdə real dövlət xərcləri real qeyri-neft ÜDM ilə statistik əhəmiyyətli müsbət əlaqəsini qorusa da, real özəl investisiyaların real qeyri-neft ÜDM ilə statistik əhəmiyyətli əlaqəsi aşkar edilməmişdir. Bu tədqiqatın aparılmasında real özəl investisiyaların hansı hissəsinin Azərbaycan iqtisadiyyatının neft sektoru ilə əlaqəli olması nəzərə alınsaydı daha tutarlı arqumentlər əldə etmək olardı. Real özəl investisiyaların sektorlar üzrə bölünməsi və xüsusi olaraq qeyri-neft real özəl investisiyaların qeyri-neft ÜDM-ə təsirinin təhlili fərqli və kifayət qədər maraqlı nəticələr verə bilər.

Oomes və Kalcheva (2007) “büdcə xərcləri effekti” və “resursların hərəkəti effekti”ni birləşdirərək “Holland sindromu”nun sınaqdan keçirilə bilən 4 mülahizəsini irəli sürmüşlər:

a) emal sənayesinin artımının azalması (həm birbaşa, həm də dolayı deindustriallaşma prosesinin əlaməti);

b) ticarət olunmayan sektorlarda daha yüksək artım;

c) ümumi əmək haqqı səviyyəsinin yüksəlməsi;

d) real effektiv məzənnənin ticarət olunmayan sektorda tələbin artması və nəticədə digər ölkələrə nisbətən bu sektorda qiymətlərin bahalaşması nəticəsində baş verən yüksəlişi.

Həsənov (2013b) 2000-2007-ci illəri əhatə edən tədqiqatında “Holland sindromu”nun yuxarıda qeyd edilən 4 hipotezinin Azərbaycan iqtisadiyyatı timsalında təhlil etmişdir. Tədqiqat zamanı ticari qeyri-neft sektorunda ÜDM və neft qiymətləri arasında statistik əhəmiyyətli uzunmüddətli mənfi kointeqrasiya əlaqəsi aşkar edilmişdir. Tədqiqat zamanı üzə çıxan bir maraqlı fakt da budur ki, qeyri-neft sektorunun zaman tendensiyası müsbət olmuşdur. Bu da neft qiymətləri daxil omaqla, hər şeyin sabit qaldığı ssenaridə ticari qeyri-neft sektorunun böyüyəcəyinə işarə edir. Bu fakt nisbi deindustriallaşmanın tam olaraq keçid effektinə aid etməyin mümkün olmadığını göstərir. Bu araşdırma göstərir ki, Azərbaycanda “büdcə xərcləri effekti” daha güclü təsirə malikdir nəinki, “resursların hərəkəti effekti”. Çünki bu dövrdə neft gəlirləri hesabına maliyyələşdirilən büdcə xərcləri əhəmiyyətli dərəcədə artmışdır. Bundan əlavə, qeyri-ticarət sektorunda və neft sektorunda məşğulluğun təhlili göstərir ki, məşğulluq qeyri-ticari sektorda artmış, mədənçıxrama sektorunda isə azalmışdır. Qeyri-ticari sektorda artan məşğulluğun səbəblərindən biri “büdcə xərcləri” effekti ilə əlaqələndirilə bilər, çünki dövlət xərclərinin əhəmiyyətli bir hissəsi infrastruktur layihələrinə yönəlir və bu sahələrdə yeni iş yerlərinin yaranmasına gətirir. Dövlət xərclərinin qeyri-ticari sektorda tikinti ilə yanaşı nəqliyyat, rabitə və xidmət sahələrinin də böyüməsinə müsbət təsirini qeyd etmək lazımdır. Araşdırmanın bir nəticəsi də budur ki, ümumi iqtisadiyyatda real əmək haqqı artımı qeyri-ticari sektordakı real əmək haqqı artımı ilə yüksək korrelyasiyaya sahib olmuşdur. Qeyri-ticari sektorda məşğulluğun daha yüksək olması səbəbindən bu sektorun çəkisinin daha yüksək olması ilə sonuncu nəticə gözlənilən idi. Bundan əlavə, Həsənovun (2010) tədqiqatına əsasən real neft qiymətləri ilə real valyuta məzənnəsi arasında statistik əhəmiyyətli müsbət əlaqə müşahidə edilmişdir. Həsənov (2013b) tədqiqatının bir başqa nəticəsi isə neft sektoruna xarici birbaşa investisiyalarla qeyri-neft ixracının həcmi arasında statistik əhəmiyyətli mənfi əlaqənin müşahidə olunmasıdır. Qeyd etmək lazımdır ki, real məzənnənin bahalaşmasının əsas səbəblərindən biri də “büdcə xərcləri” effekti olmuşdur. Artan dövlət xərcləri ilə baş verən iqtisadi stimullaşdırma nəticəsində bu xərclərin mühim hissəsinin aid olduğu qeyri-ticari sektorunda qiymətlərin bahalaşması baş vermişdir.

İdxal zamanı dövlət büdcəsinə mədaxil edilən ƏDV, aksizlər, yol vergisi və gömrük rüsumlarının məbləği ilə qeyri-neft sektorunda artım arasında əlaqəyə həsr olunmuş tədqiqatda həm də proteksionist xarakter daşıyan idxal vergiləri və rüsumlarının yerli istehsalın artımına səbəb olmadığı müəyyən edilmişdir (Seyfullayev, 2020). Eyni zamanda, hökumətin ticarət

siyasətinin açıqlığı (idxa və ixracın cəminin ÜDM-də payı) ilə qeyri-neft sektorunda artım arasında əlaqələrin zəifliyi də ölkəmizdə yerli istehsalın artımı üçün daha sistemli və ünvanlı tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu göstərir (Seyfullayev, 2022).

Həsənov və başqaları (2018) dövlətin sosial və fiziki infrastruktur xərclərinin Azərbaycanın iqtisadi artımına təsirini araşdırmaq üçün FMOLS modelindən istifadə etmiş və bu zaman qeyri-neft sektorunun ticari və qeyri-ticari sahələrinə xüsusi diqqət yetirmişlər. Modeldə asılı dəyişən kimi qeyri-neft sektorunun ticari və qeyri-ticari sahələrində əlavə edilmiş dəyər göstəricisi, müstəqil dəyişənlər kimi isə büdcənin investisiya və əmtəələrin alınması xərcləri, büdcənin sosial xərcləri, qeyri-neft sektorunda kapitalın həcmi, qeyri-neft sektorunun ticari və qeyri-ticari sahələrində işçilərin sayı göstəricilərindən istifadə edilmişdir. Bütün dəyişənlər ilkin səviyyədə qeyri-stasionar, birinci törəmdə stasionar olmuş, dəyişənlər arasında kointeqrasiya əlaqəsi aşkar edilmişdir. Bu nəticələr FMOLS modelini tətbiq etməyə imkan vermişdir. Tədqiatın nəticələrinə görə, dövlət xərcləri uzunmüddətli dövrdə hər iki sektora müsbət təsir göstərir, lakin qeyri-ticari sektorlar dövət xərclərinin artımından daha yaxşı bəhrələnir. Müəyyən edilmişdir ki, qeyri-neft kapitalı, büdcənin infrastruktur investisiyaları və sosial xərcləri qeyri-ticari sektorda artımla statistik əhəmiyyətli müsbət əlaqəyə malikdir. Qeyri-neft sektorunun ticari sahələrinə gəldikdə isə büdcədən infrastruktur investisiyaları ilə statistik əhəmiyyətli müsbət əlaqə mövcud olsa da, sosial xərclərlə  statistik əhəmiyyətli əlaqə aşkar edilməmişdir. Müəlliflər bu nəticələrin üç mümkün izahını vermişlər (Həsənov və b., 2018):

- Dövlətin investisiya xərcləri əsasən qeyri-ticari sektora daxil olan tikinti sahəsi ilə bağlıdır.
- Keçid effekti - qapalı iqtisadiyyatdan açıq iqtisadiyyata keçən ölkə  xarici ölkələrlə ticarət və rəqabətə başladıqda, qeyri-ticari sektora daxil olan xidmət sahələri ticari sektora daxil olan istehsal və kənd təsərrüfatı sahələri ilə müqayisədə daha sürətlə inkişaf edir.
- Holland sindromu - neft gəlirləri hesabına maliyyələşdirilən dövlət xərclərinin artması qeyri-ticari sektorda əmək haqqının artmasına səbəb olur, çünki istehsal və kənd təsərrüfatı kimi ticari sahələr daha çox beynəlxalq rəqabətlə üzləşir və bu fenomen əmək və kapitalın qeyri-ticari sektora rotasiyası ilə nəticələnir.

Nəzərdən keçirilən tədqiqat 1995-ci ildən 2014-cü ilə qədər olan dövrü əhatə etmişdir və bu müddətə neft qiymətlərinin enişindən sonra baş verən böhran dövrü, həmçinin Covid-19 pandemiyası ilə bağlı 2020-ci ildə baş verən böhran dövrləri daxil deyildir. Bu tədqiqat 1995-2014-cü illər dövründə müəyyən amillərin iqtisadiyyata təsiri haqqında dəyərli fikirlər təqdim etsə də, qeyd etmək lazımdır ki, son iki böhran dövrünün, yəni 2014-cü ildə neft qiymətlərinin enməsi ilə bağlı baş verən böhran və 2020-ci il Covid-19 pandemiyası ilə bağlı olan böhran dövrünün də daxil olduğu daha uzunmüddətli periodda bu faktorlar arasındakı əlaqənin tədqiq edilməsinin maraqlı nəticələr doğurması gözləniləndir.

Əliyev və Nadirov (2016) ARDLBT kointeqrasiya modelindən istifadə etməklə 2000-2015-ci illər üçün dövlət xərclərinin və qeyri-transfer dövlət gəlirlərinin Azərbaycanın qeyri-neft iqtisadiyyatına uzunmüddətli və qısamüddətli təsirlərini araşdırmışlar. Bu zaman neft hasilatı və neft qiymətləri də müstəqil dəyişənlər kimi modelə daxil edilmişdir. Bu tədqiqatın nəticələri göstərir ki, Azərbaycanın qeyri-neft iqtisadiyyatı ilə neft hasilatı, o cümlədən neftin qiyməti arasında müsbət əlaqə mövcuddur. Neft gəlirləri büdcə gəlirlərinə və buna görə də fiskal siyasət mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün bu nəticə gözlənilən idi. Bu fakt bəzi digər amillərin qeyri-neft iqtisadiyyatına təsirini təhlil etmək istədikdə neft gəlirləri dəyişəninin reqressiya tənliklərinə nəzarət dəyişəni kimi daxil edilməsi zamanı nəzərə alınmalıdır. Bu tədqiqatın digər nəticəsi ondan ibarətdir ki, uzunmüddətli perspektivdə neft qiymətlərinin təsiri hələ də əhəmiyyətlidir, neft hasilatının təsiri isə statistik əhəmiyyətliliyini itirir. Uzunmüddətli dövrdə neft hasilatı ilə qeyri-neft iqtisadiyyatı arasında əlaqənin statistik əhəmiyyətinin itməsinin səbəbi o ola bilər ki, neft hasilatının artması resursların qeyri-neft sektorunun ticari və qeyri-ticari sahələrdən  neft sektoruna keçməsi ilə paralel baş verə bilər, lakin neft qiymətləri resursların hərəkətində heç bir dəyişiklik olmadan da dəyişə bilir və büdcə gəlirlərinin, dolayısı ilə xərclərinin artması ilə birlikdə qeyri-neft iqtisadiyyatında böyümə yaradır. Bu tədqiqata

əsasən uzunmüddətli perspektivdə dövlət xərclərinin artımı ilə qeyri-neft ÜDM arasında statistik əhəmiyyətli müsbət təsir, qeyri-transfert büdcə gəlirləri ilə qeyri-neft ÜDM arasında isə statistik əhəmiyyətli mənfi təsir aşkar edilmişdir. Büdcənin transfert gəlirlərinin ARDNF-dən, qeyri-transfert gəlirlərinin isə əsasən vergilərdən ibarət olduğunu nəzərə aldıqda, qeyri-transfert büdcə gəlirləri ilə qeyri-neft ÜDM arasındakı mənfi əlaqə də bir çox iqtisadi nəzəriyyəyə əsasən gözlənilən idi. Bu tədqiqatın qısamüddətli təsirlərlə bağlı nəticələri çox əhəmiyyətlidir. Maraqlıdır ki, bu tədqiqat zamanı neft hasilatının artımı ilə qeyri-neft istehsalı arasıda statistik əhəmiyyətli mənfi təsiri aşkar edilmişdir. Qısamüddətli perspektivdə fiskal siyasət alətlərinin qeyri-neft ÜDM-ə təsirinin mübahisəli olduğu aşkar edilmişdir. Bu araşdırmada qısamüddətli dövrdə dövlət xərclərinin artımı ilə qeyri-neft ÜDM-i arasında statistik cəhətdən əhəmiyyətli olmayan mənfi əlaqə aşkar edilmişdir. Dövlət xərcləri ilə mənfi əlaqə müəyyən dərəcədə avtomatik stabilizatorların təsiri ilə izah edilə bilər: iqtisadi böyümənin yüksək olduğu dövrlərdə vergi gəlirləri də hər hansı fiskal siyasət dəyişikliyi olmadan və eyni vergi dərəcələri ilə paralel olaraq artır. Həmçinin, iqtisadiyyat böyüdükdə əhalinin rifah səviyyəsinin yaxşılaşması ilə birlikdə büdcədən müxtəlif sosial xərclərə ehtiyac azalır. Qısamüddətli dövrdə büdcə xərcləri və qeyri-transfert büdcə gəlirləri ilə qeyri-neft iqtisadi artımı arasındakı əlaqələrin daha dərindən araşdırılması da mövzu üzrə biliklərimizi zənginləşdirməkdə faydalı ola bilər.

Əliyev, Dehninq və Nadirov (2016) dövlət xərclərinin və qeyri-transfert büdcə gəlirlərinin uzunmüddətli və qısamüddətli təsirlərinin Azərbaycanın qeyri-neft iqtisadiyyatına təsirini təhlil etmək üçün OLS, ARDL, FMOLS, DOLS və CCR metodlarından istifadə edərək tədqiqat aparmışlar. Əliyev və Nadirov (2016) tərəfindən aparılmış təhlilə əlavə olaraq, bu tədqiqat işində “Granger casuality” testləri aparılmışdır. Onlar real qeyri-neft ÜDM ilə real büdcə xərcləri arasında iki istiqamətli səbəb əlaqəsini tapdılar. Bundan əlavə “Granger casuality” testlərinə görə, qeyri-transfert dövlət gəlirlərindəki dəyişmələr real qeyri-neft ÜDM və real büdcə xərclərindəki dəyişmələrə səbəb olmuşdur.

Dünyanın digər ölkələrində də müxtəlif dövrlərdə iqtisadi artım və fiskal siyasət arasındakı əlaqəni araşdıran tədqiqatlar aparılmışdır. Həmin tədqiqatların da təhlili Azərbaycana tətbiq ediləcək yanaşmaların nəzəri əsaslarını gücləndirə bilər.

Ghergota və həmmüəllifləri (2021) Azərbaycan üzrə aparılmış tədqiqatlardan fərqli bir yanaşma tətbiq etmişlər. Bu tədqiqatda dövlət xərclərindən daha çox müxtəlif vergi növlərinin iqtisadi artıma təsirinə diqqət yetirilmiş, asılı dəyişən real ÜDM-in artımı olmaqla, müstəqil dəyişənlər 3 kateqoriyada qruplaşdırılmışdır:

- Fiskal dəyişənlərə mallara və xidmətlərə görə vergilər, ümumi vergi gəlirləri, əmək haqqı vergiləri, fiziki şəxslərin gəlir vergiləri, əmlak vergiləri, korporativ mənfəət vergiləri, sosial sığorta ödənişləri göstəricilərə aid edilmişdir.
- Dövlət idarəçiliyi göstəricilərinə Dünya bankının şəffaflıq və hesabatlılıq, Vergi azadlığı indeksi, Siyasi sabitlik və zorakılığın/terrorun olmaması, Qanunun aliliyi, Tənzimləyicinin keyfiyyəti, Korrupsiyaya nəzarət və hökumətin effektivliyi kimi dövlət idarəçiliyi göstəriciləri aid edilmişdir.
- Ümumi Əsas Kapital, ev təsərrüfatlarının son istehlak xərcləri, büdcə xərcləri və idxal modelə nəzarət göstəriciləri kimi daxil edilmişdir.

“İƏİT” üzv ölkələrinin 2002-2017-ci illəri əhatə edən panel verilənəri əsasındaa “OLS” (“Ordinary Least Squares”) və “GMM” (“Generalized Method of Moments”) metodları istifadə olunmuşdur. Fiskal dəyişənlərlə bağlı “OLS” reqressiyasının nəticələri aşağıdakı kimi olmuşdur:

**Cədvəl 1. İƏİT ölkələrində iqtisadi artımla müstəqil dəyişənlər arasında əlaqələrin təbiəti**

| s/s | Müstəqil dəyişənlər | "OLS" reqressiyasının nəticələri | "GMM" reqressiyasının nəticələri |
|---|---|---|---|
| 1. | Mallara və xidmətlərə vergilər | statistik əhəmiyyətli müsbət əlaqə | statistik əhəmiyyətli müsbət əlaqə |
| 2. | Ümumi fiskal gəlirlər | statistik əhəmiyyətli müsbət əlaqə | statistik əhəmiyyətli müsbət əlaqə |
| 3. | Fiziki şəxslərin gəlir vergiləri | əlaqə statistik əhəmiyyətsizdir | statistik əhəmiyyətli müsbət əlaqə |
| 4. | Korporativ mənfəət vergiləri | əlaqə statistik əhəmiyyətsizdir | statistik əhəmiyyətli mənfi əlaqə |
| 5. | Sosial sığorta ödənişləri | statistik əhəmiyyətli mənfi əlaqə | statistik əhəmiyyətli mənfi əlaqə |
| 6. | Əmək haqqı vergiləri | əlaqə statistik əhəmiyyətsizdir | əlaqə statistik əhəmiyyətsizdir |
| 7. | Əmlak vergiləri | statistik əhəmiyyətli müsbət əlaqə | əlaqə statistik əhəmiyyətsizdir |

Mənbə: (Ghergota və b., 2021).

Beləliklə, 2 reqressiya metodunda fərqli nəticələr əmlak vergiləri, fiziki şəxslərin gəlir vergisi və korporativ mənfəət vergisi ilə bağlı olmuşdur.

İqtisadi nəzarət dəyişənləri ilə bağlı nəticələr isə aşağıdakı kimi olmuşdur:

- Əsas kapitalın formalaşmasının real ÜDM artımı ilə əhəmiyyətli müsbət əlaqəsi olduğu aşkar edilmişdir.
- İdxalın iqtisadi artımla əhəmiyyətli müsbət əlaqəsi olduğu da aşkar edilmişdir. Bu əlaqə müəlliflər tərəfindən belə izah edilir ki, idxalın artımı məhsuldarlığın artırılması üçün alınan məhsul və xidmətlərlə bağlıdır.
- Ev təsərrüfatlarının istehlakının real ÜDM artımı ilə əhəmiyyətli mənfi əlaqəsi olduğu aşkar edilmişdir. Bu nəticə istehlakın səmərəli yerli istehsalla qarşılanmaması və dayanıqlı tələblə dəstəklənməməsi ola bilər.
- Dövlət xərclərinin iqtisadi artımla əhəmiyyətli dərəcədə mənfi əlaqəsi olduğu aşkar edilmişdir. Belə nəticə dövlət xərclərinin səmərəsiz istifadəsi ilə əsaslandırıla bilər.

Dövlət idarəetməsi göstəriciləri ilə bağlı nəticələr isə aşağıdakı kimi olmuşdur:

- İqtisadi artımla vergi azadlığı göstəricisinin əhəmiyyətli mənfi əlaqəsi olduğu aşkar edilmişdir. Vergi yükünün artması iqtisadi inkişafın azalması ilə nəticələnir.
- Qanunun aliliyi göstəricisi ilə iqtisadi artım arasında əhəmiyyətli neqativ əlaqə aşkarlanmışdır. Belə nəticə sorğularda subyektivliyin olması ilə əsaslandırıla bilər.
- Tənzimləmənin keyfiyyətinin iqtisadi artımla əhəmiyyətli müsbət əlaqəsi olduğu aşkar edilmişdir. Bu da hökumətlərin səmərəli idarəçiliyinin iqtisadi artımı dəstəklədiyini göstərir.

- Korrupsiyaya nəzarətin iqtisadi artımla əhəmiyyətli müsbət əlaqəsi olduğu aşkar edilmişdir ki, bu da yenidən səmərəli idarəçiliyə işarə edir.
- Siyasi sabitlik və zorakılığın/terrorun olmaması ilə real ÜDM artımı ilə statistik cəhətdən əhəmiyyətsiz əlaqəsi olduğu aşkar edilmişdir.
- Əksər modellərdə hökumətin effektivliyinin iqtisadi artımla statistik cəhətdən əhəmiyyətsiz əlaqəsi olduğu aşkar edilmişdir.
- Səs və hesabatlılığın əksər modellərdə real ÜDM artımı ilə statistik cəhətdən əhəmiyyətsiz əlaqəsi olduğu aşkar edilmişdir.

Georgeta və başqaları (2021) Azərbaycandakı bir çox araşdırmadan fərqli olaraq fiskal siyasət və iqtisadi artım arasındakı əlaqəni araşdırarkən dövlət idarəçiliyinin effektivliyi göstəricilərini də modelə daxil etmişdir. Azərbaycanda bu mövzuda ediləcək gələcək araşdırmalarda bu göstəricilərin modelə daxil edilməsi mümkün olarsa, mövzunun öyrənilməsində maraqlı nəticələr üzə çıxara bilər.

Zagler və Dürnecker (2003) fiskal siyasətin iqtisadi artıma təsirini araşdırmaq üçün dövlət xərclərini məhsuldar və qeyri-məhsuldar xərclərə ayırmışlar. Onlar təhsil və infrastruktur investisiyaları ilə bağlı xərclərin uzunmüddətli perspektivdə real ÜDM artımı ilə müsbət əlaqəsini aşkar etmişlər. Onlar həmçinin vergiləri müxtəlif qruplara ayırmış, korporativ mənfəət, istehsal sektorunda əmək haqqı, tədqiqat və inkişaf xərcləri üzrə vergilərin və aralıq məhsullar üzrə vergilərin iqtisadi artıma təsir göstərdiyini müəyyən etmişlər. Azərbaycanda bu mövzuda ediləcək gələcək araşdırmalarda da, dövlət xərclərinin və vergilərin müxtəlif xüsusiyyətlərinə görə qruplaşdırılması mövzunun daha dərindən öyrənilməsinə xidmət edərdi.

Barro (1990) iqtisadi artım və dövlət xərcləri arasındakı əlaqəyə qeyri-xətti yanaşma təklif etmişdir. Dövlət xərclərinin iqtisadi artıma töhfə verə biləcəyi sualını iqtisadiyyatda dövlətin mövcudluğunun zəruriliyi sualına cavablarla da izah etmək olar: "bazar uğursuzluqları". Milli müdafiə kimi bəzi ictimai məhsullar və hökumət olmadığı təqdirdə özəl iştirakçılar tərəfindən təmin edilməyəcək məhsullar dövlətin zəruriliyinə əsas kimi göstərilir. Bundan əlavə, müsbət xarici təsirə malik bəzi xərclərin (tədqiqat xərcləri və s.) dövlət olmadığı təqdirdə özəl iştirakçılar tərəfindən optimal dərəcədə təmin edilməyəcəyi düşünülür. Çünki özəl oyuncular Pareto optimumunu həmişə təmin edə bilmir. Beləliklə, infrastruktur, təhsil, tədqiqat və digər istiqamətlərə yönəlmiş dövlət xərcləri iqtisadiyyatın məhsuldarlığını artıra və iqtisadi artımı sürətləndirə bilər. Amma unutmaq olmaz ki, dövlət xərcləri hansısa formada maliyyələşdirilməlidir, dövlət xərclərinin bir hissəsi vergi daxilolmaları hesabına, bir hissəsi isə borclanma hesabına maliyyələşdirilə bilər. Vergilər iqtisadiyyatdakı digər iştirakçıların investisiya, işçi qüvvəsinə qoşulma kimi qərarlarına mənfi təsir etməklə iqtisadi artımı azalda bilər. Borclanmaya gəldikdə isə bu borclar da gələcəkdə vergi gəlirləri hesabına ödənilməlidir, həmçinin dövlət borclanması özəl iştirakçılar üçün daha yüksək faiz dərəcələri ilə nəticələnə bilər ki, bu da onların maliyyə xərclərinin artmasına səbəb ola bilər və özəl investisiyaların həcminə mənfi təsir etməklə iqtisadi artım sürətini azalda bilər. Bu məsələdə Azərbaycan müsbət mənada fərqlənə bilər. Belə ki, hazırda dövlət xərclərinin 30-40%-i ARDNF-in transferləri hesabına təmin edilir və əlavə büdcə xərcləri ilə bağlı yeni dövlət borcları yaranmır. Burada əsas məsələ artan dövlət xərclərinin iqtisadi artıma təsir mexanizminin səmərəliliyinin artırılması və təsir kanallarının inkişaf etdirilməsi ilə bağlıdır.

Aparılan müzakirədən belə nəticə çıxara bilərik ki, dövlət xərcləri məhsuldarlığı müəyyən dərəcədə artırana qədər iqtisadi artım üçün faydalı ola bilər. Barro (1990) bir ölkənin Ümumi Daxili Məhsulunda dövlət xərclərinin optimal çəkisinin olduğunu iddia edir. Dövlətin iqtisadiyyatda payı həmin optimuma çatana qədər, məhsuldar dövlət xərcləri iqtisadi artımı artıracaq. Optimal nöqtədən sonra isə dövlət xərclərinin artırılması məhsuldar olmayacaq. Bu dövlət xərclərinin maliyyələşdirilməsi ilə bağlı vergilərin artırılması və bu xərclərin maliyyələşdirilməsi üçün borc alınması özəl iştirakçıların insentivlərinə mənfi təsir edəcək və iqtisadi artıma zərər verəcək.

Barro (1990) öz məqaləsində müxtəlif məqalələrdən bəzi empirik nəticələri də sadalamışdır:

- Kormendi, Roger və Meguire (1985) II Dünya Müharibəsindən sonrakı dövr üçün təxminən 50 ölkəni əhatə edən tədqiqatlarında nə real Ümumi Daxili Məhsulun artım tempi ilə dövlət istehlakının (ümumi dövlət xərclərindən əsas kapital formalaşması və sosial yardım xərcləri çıxılaraq hesablanmışdır) artım tempi, nə də real ÜDM artım tempi ilə dövlət istehlakının ÜDM-dəki payı arasında statistik əhəmiyyətli əlaqə aşkar edə bilməyiblər.
- Grier və Tullock (1987) Kormendi, Roger və Meguire (1985) ilə oxşar araşdırma aparsalar da, məlumat bazasına 100-dən çox ölkəni daxil etmişlər və ÜDM-in real artım tempi ilə dövlət xərclərinin ÜDM-də payının artım tempi arasında statistik əhəmiyyətli mənfi əlaqə aşkar ediblər.
- Landau (1983) da 100-ə yaxın ölkədə yuxarıdakılara bənzər tədqiqat aparmış və ÜDM-in real artım tempi ilə dövlət xərclərinin ÜDM-də payı arasında statistik əhəmiyyətli mənfi əlaqə aşkar etmişdir. Bu araşdırmanın fərqli bir məqamı dövlətin təhsil xərclərinin modeldə sabit saxlanılması olmuşdur.
- Barth və Bradley (1987) real ÜDM artımı ilə dövlətin istehlak xərclərinin ÜDM-də payı arasında statistik əhəmiyyətli mənfi əlaqə tapmışlar. Bu araşdırma zamanı həmçinin, iqtisadiyyatdakı qeyri-dövlət iştirakçıların investisiyalarının ÜDM-də payı sabit saxlanıldıqda, iqtisadi artımla dövlət investisiyalarının ÜDM-dəki çəkisi arasında müsbət, lakin statistik əhəmiyyətsiz əlaqə aşkar edilmişdir.
- Barro (1989) araşdırmasında ÜDM-in real artımı ilə qeyri-məhsuldar dövlət xərcləri (Kormendi, Roger və Meguire (1985) araşdırmasında istifadə edilən dövlət istehlakından təhsil və müdafiə xərcləri çıxılaraq hesablanılmışdır) arasında statistik əhəmiyyətli mənfi əlaqə aşkar etmişdir. Bu araşdırmada, həmçinin ÜDM-in real artımı ilə dövlət investisiyaları arasında müsbət, lakin statistik əhəmiyyətsiz əlaqə aşkar edilmişdir.

Barro və Redlick (2010) ABŞ-ın büdcə xərcləri və vergi gəlirlərinin ölkədə iqtisadi artıma təsirinə həsr edilmiş araşdırmalarında dövlət xərcləri arasında müdafiə xərclərini və qeyri-müdafiə diqqət yetirmiş, mallara və xidmətlərə istehlak xərclərinin ÜDM-ə multiplikativ təsirinin kiçik olduğunu müəyyən etmişlər. Eyni zamanda, vergi multiplikatorunun (orta marjinal gəlir vergisi dərəcələrində artımın ÜDM-ə təsiri) əhəmiyyətli dərəcədə və mənfi olması da diqqət çəkən amil kimi qeyd edię bilər. Marjinal vergi dərəcələrinin sabit saxlanıldığı halda isə federal vergi gəlirlərindəki dəyişikliklərin ÜDM-ə təsirinin statistik cəhətdən əhəmiyyətli olmadığı müəyyən edilmişdir. Lakin marjinal vergi dərəcələrinin artmasının federal vergi gəlirlərinin sabit qaldığı halda ÜDM-ə statistik əhəmiyyətli mənfi təsir göstərir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bu məqalədə Azərbaycan və başqa ölkələr üzrə fiskal siyasət və iqtisadi artım arasındakı əlaqəni tədqiq edən müxtəlif araşdımaların nəticələr təqdim edilmişdir. Azərbaycan üzrə aparılan bir çox tədqiqatlarda (Əliyev və Nadirov, 2016;  Əliyev, Dehninq və Nadirov, 2016; Həsənov, 2013a) uzunmüddətli dövrdə dövlət xərcləri ilə qeyri-neft ÜDM arasında müsbət əlaqə aşkar etmişdirlər. Başqa ölkələr üzrə aparılmış tədiqaqatlarda (Barro, 1989; Barro, 1990; Barth və Bradley, 1987; Grier və Tullock, 1987; Landau, 1983) müəyyən edilmişdir ki, ekonometrik modellərə real dövlət xərcləri ilə yanaşı, dövlət xərclərinin ÜDM-də payı göstəricisi sərbəst dəyişən kimi modelə daxil edildiyi halda, fiskal siyasət və real ÜDM artımı arasındakı əlaqə ilə bağlı fərqli nəticələr əldə edilə bilər. Həmçininn, Georgeta və b. (2021) tədqiqatına uyğun olaraq, dövlət xərcləri, dövlət xərclərinin ÜDM-dəki payı kimi göstəricilərlə yanaşı dövlətin effektivliyi göstəricilərinin də empirik modellərə daxil edilməsi Azərbaycan üzrə bu mövzunun öyrənilməsində yenilik kimi qiymətləndirilə bilər. Fiskal siyasət komponentlərinin iqtisadi artıma uzun və qısamüddətli dövrdə təsirinin fərqli xarakter daşıması da təsbit edilmiş nəticələrdəndir.  Həsənov (2013a) araşdırmasına əsasən Azərbaycanda real dövlət xərcləri ilə real qeyri-neft ÜDM arasında müsbət əlaqə mövcuddur, lakin Əliyev və Nadirov (2016) araşdırmasına görə qısamüddətli dövrdə real dövlət xərcləri ilə real qeyri-neft ÜDM arasında mənfi əlaqə mövcuddur. Qısamüddətli dövrdə Azərbaycan üzrə bu iki göstərici arasındakı əlaqənin araşdırılması növbəti tədqiqatlar üçün başlıq ola bilər.

## ƏDƏBİYYAT

1. Aliyev, K., Dehning, B., və Nadirov, O. (2016). Modelling the Impact of Fiscal Policy on Non-Oil GDP in a Resource Rich Country: Evidence from Azerbaijan. Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis, 64(6), 1869-1878.
2. Aliyev, K.və Nadirov, O. How Fiscal Policy Affects Non-Oil Economic Performance in Azerbaijan? Academic Journal of Economic Studies, Vol. 2, No.3, September 2016: 11–29
3. Barro, Robert J. (1989). "Economic Growth in a Cross Section of Countries." Working Paper no. 3120. Cambridge, Mass.: NBER, September.
4. Barro, Robert J. (1990) Government spending in a simple model of endogeneous growth. *Journal of political economy*. Available at https://www.nber.org/system/files/working_papers/w2588/w2588.pdf
5. Barro Robert J. and Wheaton Brian (2010). Taxes, Incorporation, and Productivity. Available at https://scholar.harvard.edu/files/barro/files/taxes_inc_productivity_2019_03.pdf
6. Barth, James R. və Bradley, Michael D. (1987). "The Impact of Government Spending on Economic Activity." Manuscript. Washington: George Washington Univ.
7. Georgeta V., Gherghina, Ş.C. və Stefania, C.C. (2021) Does Fiscal Policy Influence the Economic Growth? Evidence from OECD Countries. Economic computation and economic cybernetics studies and research / Academy of Economic Studies 55(2/2021):229-246
8. Grier, Kevin B. & Tullock, Gordon, 1989. "An empirical analysis of cross-national economic growth, 1951-1980". Journal of Monetary Economics, Elsevier, vol. 24(2): 259-276. https://doi.org/10.1016/0304-3932(89)90006-8
9. Kormendi, Roger C., and Meguire, Philip G. "Macroeconomic Determinants of Growth: Cross-Country Evidence." Journal of Monetary Economics, 16 (September 1985): 141-63. https://doi.org/10.1016/0304-3932(85)90027-3
10. Hasanov, F. (2010). The Impact of Real Oil Price on Real Effective Exchange Rate: The Case of Azerbaijan. DIW Berlin, German Institute for Economic Research. Discussion Paper Series 1041.
11. Hasanov, F. (2013a). The Role of the Fiscal Policy in the Development of the Non-Oil Sector in Azerbaijan. Hazar Raporu, 4: 162–73.
12. Hasanov, F. (2013b). Dutch disease and the Azerbaijan economy. Communist and Post-Communist Studies, 46: 463–480.
13. Hasanov, F., Yusifov, S., Mikayilov, C., Aliyev, K., və Talishinskaya, S. (2018). The role of social and physical infrastructure spending in tradable and non-tradable growth. Forthcoming Contemporary Economics. Doi: 10.5709/ce.1897-9254.300
14. Landau, Daniel L. "Government Expenditure and Economic Growth: A Cross-Country Study." Southern Economic Journal 49 (January 1983): 783-92. https://doi.org/10.2307/1058716
15. Oomes, N., Kalcheva, K., (2007). Diagnosing Dutch Disease: Does Russia have the Symptoms. BOFIT. Discussion Paper No. 6.
16. Rosenberg, C.B. və Saavalainen, T.O. (1998). How to Deal with Azerbaijan's Oil Boom? Policy Strategies in a Resource-rich Transition Economy. IMF. Working Paper 98/6.
17. Seyfullayev, I. (2020). Protectionism and non-resource economic growth: Evidence from Azerbaijan. Problems and Perspectives in Management, 18(4), 121-129. http://dx.doi.org/10.21511/ppm.18(4).2020.11

18. Seyfullayev, I. (2022). Trade openness and economic growth: Evidence from Azerbaijan. Problems and Perspectives in Management, 20(1), 564-572. http://dx.doi.org/10.21511/ppm.20(1).2022.45

19. Zagler, M. və Dürnecker, G. (2003). Fiscal Policy and Economic Growth, Vienna University. Journal of Economic Surveys, 17: 397-418.

## АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ПОДХОДОВ НА РЕГУЛИРУЮЩИЕ ФУНКЦИИ ФИСКАЛЬНОЙ ПОЛИТИКИ

Джавид СЕЙФУЛЛАЛИ

### РЕЗЮМЕ

Довольно часто в экономической науке встречаются резко отличающиеся друг от друга эмпирические рассуждения о необходимости и последствиях вмешательства государства в экономические процессы посредством фискальных или иных регулирующих инструментов. Краткосрочные и долгосрочные эффекты регулирующей функции фискальной политики государстства на национальную экономику, характер взаимосвязи между фискальной политикой и ее составляющими и экономическим ростом и сегодня остаются в центре научных дискуссий как один из актуальных объектов исследования экономическая наука. Результаты проведенного обзора литературы показывают, что эффективность фискальной политики как инструмента регулирования проявляется в разных формах в связи с влиянием уровня развития стран, структуры и масштабов экономики, качества институтов, предпринимательской культуры, управленческие способности и другие факторы. Цель статьи - провести теоретический синтез на основе группировки и анализа результатов, полученных в исследованиях, изучающих влияние фискальной политики на экономический рост. Результаты исследования, проведенного в Азербайджане, показывают, что существует положительная связь между реальными государственными расходами и реальным ненефтяным ВВП в краткосрочной перспективе. Анализ исследований, проведенных в других странах, показывает, что включение в модели помимо реальных государственных расходов показателей качества (эффективности) регулирования и доли государственного сектора в ВВП позволяет более глубоко изучить объект исследования. Также в связи с отсутствием однозначного подхода в исследованиях связи между реальными государственными расходами и ненефтяным экономическим ростом в долгосрочной перспективе предлагается провести новые исследования в этом направлении. При этом оценка составляющих государственных доходов и расходов с точки зрения их влияния на экономический рост может рассматриваться как актуальное направление исследований. Полученные теоретические и эмпирические аргументы позволяют определить теоретико-методологическую основу для изучения взаимосвязи фискальной политики и экономического роста в Азербайджане.

***Ключевые слова:*** *фискальная политика, экономический рост, экономика Азербайджана, ненефтяной ВВП.*

# ANALYSIS OF THEORETICAL APPROACHES TO THE REGULATORY FUNCTIONS OF FISCAL POLICY

Javid SEYFULLALI

**SUMMARY**

Quite often in economics, there are sharply different empirical arguments about the necessity and consequences of state intervention in economic processes through fiscal or other regulatory instruments. The short-term and long-term effects of the regulatory function of the state's fiscal policy on the national economy, the nature of the relationship between fiscal policy and its components and economic growth remain at the center of scientific discussions today as one of the topical objects of economic science research. The results of the literature review show that the effectiveness of fiscal policy as a regulatory tool manifests itself in various forms due to the influence of the level of development of countries, the structure and scale of the economy, the quality of institutions, entrepreneurial culture, managerial abilities and other factors. The purpose of the article is to carry out a theoretical synthesis based on the grouping and analysis of the results obtained in studies that study the impact of fiscal policy on economic growth. The results of a study in Azerbaijan show that there is a positive relationship between real government spending and real non-oil GDP in the short term. An analysis of studies conducted in other countries shows that the inclusion in the models, in addition to real government spending, of indicators of the quality (efficiency) of regulation and the share of the public sector in GDP allows a deeper study of the object of study. Also, due to the lack of an unambiguous approach in studies of the relationship between real government spending and non-oil economic growth in the long term, it is proposed to conduct new studies in this direction. At the same time, the assessment of the components of government revenues and expenditures in terms of their impact on economic growth can be considered as a topical area of research. The obtained theoretical and empirical arguments make it possible to determine the theoretical and methodological basis for studying the relationship between fiscal policy and economic growth in Azerbaijan.

***Keywords:*** *fiscal policy, economic growth, Azerbaijan economy, non-oil GDP.*

Məqalə redaksiyaya daxil olub: 24.07.2023
Təkrar işlənməyə göndərilib: 28.08.2023
Çapa qəbul olunub:14.11.2023